DOI: https://doi.org/10.36719/2663-4619/117/69-72

**İntiqam Niyazlı**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0004-2277-9999
intiqam.niyazli.1@gmail.com

# Şagirdlərin sosial inkişafında kütləvi informasiya vasitələrinin təsir metodlarının rolu

## Xülasə

Müasir informasiya cəmiyyətində kütləvi informasiya vasitələinin uşaqlar və yeniyetmələr üzərində təsiri getdikcə güclənir və onların dünyagörüşünə, davranışlarına, sosial münasibətlərinə əhəmiyyətli şəkildə təsir göstərir. Yeniyetmələr informasiya texnologiyalarına daha çox meyllidir və bu da onların sosiallaşma prosesinə bilavasitə təsir edir. Burada KİV-in formalaşdırıcı rolu, onların verdiyi mesajların şüuraltı təsir gücü, manipulyativ metodlar, vizual və verbal təsir texnikaları ətraflı şəkildə araşdırılıb. Eyni zamanda, bu vasitələrin psixoloji təhlükələri və potensial faydaları dəyərləndirilib. Yeniyetmələrin şəxsiyyətinin inkişafında KİV-in rolunun düzgün istiqamətləndirilməsinin vacibliyini vurğulanıb və valideyn-pedaqoq tandeminin əhəmiyyətini ön plana göstərilib. Tədqiqat nəticəsində məlum olmuşdur ki, media kontentinin pedaqoji nəzarəti və şagirdlərə media savadlılığının aşılanması onların sosial bacarıqlarının formalaşmasında mühüm rol oynayır. KİV-in təsiri həm müsbət, həm də mənfi nəticələr doğura bilər və bu təsirlərin xarakteri, əsasən, istifadə formasından və təhsil mühitindən asılıdır. Məqalədə yeniyetmələrlə işdə effektiv pedaqoji yanaşmaların və media savadlılığının artırılmasının zəruriliyini əsaslandırılmışdır. KİV-in manipulyativ və maarifləndirici funksiyalarına diqqət yetirilib və bu vasitələrin düzgün istiqamətləndirilməsinin məktəblilərin sağlam sosial inkişafı üçün zəruriliyi vurğulanıb. KİV müasir cəmiyyətdə təkcə məlumat ötürən bir alət deyil, həm də güclü sosial tərbiyə və formalaşdırma vasitəsi kimi çıxış edir.

***Açar sözlər:*** *kütləvi informasiya vasitələri, şagirdlər, təsir metodları, pedoqoji təsir, sosiallaşma, sosial inkişaf*

**Intigam Niyazli**
Baku Slavic University
Master student
https://orcid.org/0009-0004-2277-9999
intiqam.niyazli.1@gmail.com

# The Role of Mass Media Methods of Influence in the Social Development of Students

## Abstract

In the modern information society, the influence of mass media on children and adolescents is steadily increasing, significantly affecting their worldview, behavior, and social relationships. Adolescents are more inclined toward information technologies, which directly impacts their socialization process. This study thoroughly examines the formative role of mass media, the subconscious impact of the messages it delivers, manipulative methods, and both visual and verbal influence techniques. At the same time, the psychological risks and potential benefits of these tools are assessed. The importance of properly guiding the role of mass media in the development of adolescents' personalities is emphasized, highlighting the significance of the parent-teacher partnership. The research findings show that pedagogical control over media content and the promotion of media literacy among students play a crucial role in shaping their social skills.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0) 

The influence of mass media can have both positive and negative outcomes, and the nature of these effects largely depends on how the media is used and the educational environment. The article substantiates the necessity of effective pedagogical approaches and enhancing media literacy when working with adolescents. Particular attention is given to the manipulative and educational functions of mass media, stressing that their proper direction is essential for the healthy social development of schoolchildren. In modern society, the media acts not only as a tool for transmitting information, but also as a powerful means of social education and formation.

***Keywords:*** *mass media, students, methods of influence, pedagogical influence, socialization, social development*

## Giriş

Müasir dövrdə cəmiyyətin sürətli informasiya axını ilə formalaşması, xüsusilə yeniyetməlik dövründə olan fərdlərin sosial və psixoloji inkişafında mühüm rol oynayır. Bu prosesdə əsas vasitəçi rolunu isə kütləvi informasiya vasitələri oynayır. Televiziya, radio, internet və digər informasiya platformaları yalnız informasiya ötürən vasitə kimi deyil, həm də sosiallaşma, dəyərlərin formalaşdırılması və davranış modellərinin təsisində mühüm amil kimi çıxış edir.

Yeniyetmələr sosial və emosional baxımdan ən həssas dövrlərindən birini keçdikləri üçün KİV-in təsirlərinə daha açıq olurlar. Bu səbəbdən də KİV tərəfindən istifadə olunan psixoloji təsir metodlarının mahiyyətini və onların yeniyetmələrə təsir mexanizmlərini təhlil etmək pedaqoji və sosial aspektdən zəruridir. Məqalənin məqsədi — bu metodların xarakterini aşkara çıxarmaq, onların yeniyetmələrin sosial inkişafına necə və nə dərəcədə təsir etdiyini müəyyənləşdirməkdir (Bandura, 2001).

Kütləvi informasiya vasitələri şəxsiyyətə və qruplara təsir etmək üçün müəyyən proqramlar hazırlamaq və həyata keçirmək üçün müxtəlif metodlardan istifadə edir. Bunun üçün hədəf auditoriya, proqramın nəzərdə tutulduğu zaman və təqdim olunan məzmunun psixoloji xüsusiyyətləri nəzərə alınır. Verilişin vəzifələrindən, hədəf auditoriyasından asılı olaraq ən uyğun metodlar müəyyən edilir.

**Tədqiqat**

İnformativ metod reklamların, sosial mesajların hazırlanmasında və reklam kampaniyalarının aparılmasında aktiv şəkildə istifadə olunur. Onun məqsədi izləyiciləri müəyyən hadisə, şəxs və ya fenomen haqqında məlumatlandırmaqdır. Şəxsiyyətin dünyagörüşünün formalaşmasında emosional amilin əhəmiyyətini nəzərə alaraq, bu metod KİV tərəfindən tez-tez istifadə olunur. Adətən digər metodlarla birlikdə tətbiq edilərək auditoriyaya təsiri gücləndirir (Buckingham, 2003).

Vətənpərvərlik metodu auditoriyanın vətənpərvərlik hisslərinə təsir göstərir. İnsanların öz yurduna, evinə, vətəninə qarşı biganə qalmaması faktından istifadə edən KİV, onların diqqətini cəlb edir, müəyyən dünyagörüşü formalaşdırır və xüsusi hərəkətlərə sövq edir. Metod reklam məqsədləri, siyasi aksiyaların təşkili və sosial tapşırıqların yerinə yetirilməsində geniş şəkildə tətbiq olunur.

Qorxutma metodu insanların öz sağlamlığına və yaxınlarının rifahına olan marağına əsaslanan ən effektiv metodlardan biridir. Metod insanın emosiyalarına təsir edir. Təqdim olunan məlumatın izləyici və yaxınlarının təhlükəsizliyini qorumaq məqsədi daşımasını nəzərə alaraq, KİV izləyicini məlumatla maraqlandırır, ona qarşı məsuliyyətli münasibət formalaşdırır və fəal düşünməyə sövq edir (Əliyeva, 2019).

Uğurlu olma vəziyyəti yaratma metodu ilə insan özünün haqlı olduğunu hiss edir və ya keçmişdə müvəffəqiyyət qazandıqda məmnunluq hissi yaşayır. KİV, müəyyən məlumatları təqdim edərək və bunun asanlıqla əldə edilə biləcəyini göstərərək, insanları təklif olunan prosesə cəlb edir. Müxtəlif oyunlar, viktorinalar və müsabiqələr təşkil etməklə bu metod geniş şəkildə tətbiq olunur.

Yumor metodu sadəliyi və əlçatanlığı ilə auditoriyanı tez və asanlıqla cəlb edir. İzləyicini müəlliflərin baxış bucağını qəbul etməyə hazırlayır. Məlumat yumorla birlikdə daha yaddaqalan və təbii şəkildə təqdim olunur. Bu metod əyləncə və reklam proqramlarının hazırlanmasında geniş istifadə olunur. Metodun tətbiqi zamanı auditoriyanın mədəniyyəti, yaşı və mentaliteti nəzərə alınmalıdır (Gerbner, Gross, Morgan, Signorielli, 1986).

Televiziyada psixoloji effektlərə əsaslanan xüsusi üsullar da mövcuddur. Bunlar xüsusi məqsədlər üçün nəzərdə tutulub və bəzən insan psixikasına ciddi təsir göstərə bilər. Buna görə də auditoriya müəyyən məhdudiyyətlər qoyulur.

Reallığın təhrif olunması effekti. Bu metod insanın heyrət doğuran, lakin dəhşətli hadisələrlə əlaqəli hadisələrə qarşı qorxularını gücləndirir. Metod Mayya Deren tərəfindən işlənib hazırlanmışdır. Məsələn, gözəl bir gül qəflətən qanlı bir şəklə çevrilir və izləyicidə qeyri-iradi qorxu yaradır.

Kəskin emosional rəğbət fonu yaratma və qısa faktların əlavə edilməsi. Bu üsul müvafiq musiqi ilə dəstəklənərək izləyicinin psixikasına güclü təsir göstərir. Metod Sten Brequic tərəfindən işlənib hazırlanmışdır. Müasir dövrdə bu üsul video kliplərdə, reklamlarda və qorxu filmlərində geniş şəkildə tətbiq olunur (Hacıyeva, 2020).

Tədricən və uzunmüddətli qavrayış effekti. Bu metod izləyicini psixi cəhətdən yoraraq ekran təsirinə qarşı müdafiəsiz hala gətirir. Metod Endi Uorhol tərəfindən işlənib hazırlanmışdır. Bu prinsip bir çox televerilişlərdə, tok-şoularda və reklam bloklarında tətbiq olunur.

İnsan həyata çoxşaxəli şəxsiyyət kimi daxil olur. Onun fəaliyyəti şəxsiyyətinin inkişaf səviyyəsini bütün cəhətləri ilə əks etdirir. Şəxsiyyətin həyat mövqeyi ictimai təsirlər, xüsusilə də tərbiyə sistemi vasitəsilə formalaşır ki, bu sistemin vacib tərkib hissəsi artıq kütləvi informasiya vasitələridir (Jenkins, 2006).

Şəxsiyyətin formalaşması insanın cəmiyyətinin təcrübə və dəyərlərini mənimsəməsi prosesində - sosiallaşmada baş verir. İnsan müxtəlif sosial rolları (uşaq, tələbə, işçi, həyat yoldaşı, valideyn və s.) yerinə yetirməyi öyrənir. Bu zaman uşaq rolları təkcə ətraf mühitdən deyil, həm də kütləvi informasiya vasitələrindən qəbul edir. Burada əsas məsələ yeniyetmələrə bu rolların nə qədər düzgün çatdırılmasıdır.

Xüsusilə yeniyetməlik dövründə uşaq artıq uşaq auditoriyası üçün nəzərdə tutulmayan, yetkinlər üçün hazırlanmış media məzmununa maraq göstərdiyi üçün kütləvi informasiya vasitələrinin sosiallaşmada rolu xüsusilə artır (Livingstone, 2009).

Şəxsiyyət ictimai münasibətlərin həm subyekti, həm də nəticəsi kimi çıxış edərək, ətraf mühiti və özünü qəsdən təşkil olunmuş fəaliyyət vasitəsilə fəal şəkildə dəyişdirir. Şəxsiyyətin qəsdən formalaşdırılması ümumi şablon deyil, hər bir fərdin fizioloji və psixoloji xüsusiyyətlərini nəzərə alan fərdi yanaşma tələb edir. Eynilə, kütləvi informasiya vasitələri də yeniyetmələrə müxtəlif inkişaf istiqamətləri təqdim edə bilər ki, bu da uşaqlıqdan qoyulmuş tərbiyədən asılıdır (Mardakhaev, 2005).

Müasir kütləvi informasiya vasitələri yeniyetmələrin dünyagörüşünə, həyat tərzinə ciddi təsir göstərə bilən dominant amilə çevrilib. Müasir uşaqlar informasiya mühiti şəraitində yaşayırlar ki, bu da informasiya xəstəliyinə səbəb olur. Uşaq psixikasına qoyulan həddindən artıq yüklənmə ağır psixoloji pozğunluqlara gətirib çıxarır. Uzun müddət virtual aləmdə qalan uşaq real dünyaya uyğunlaşmaqda çətinlik çəkir, çünki reallıq onun şüuraltına yerləşdirilən modelə uyğun gəlmir. Yeniyetmələr mediada təqdim olunan aqressiya, qorxu, antiestetik məzmun ilə üzləşirlər. Bu, onların şüurunda dünyada nizam və yaxşılığın olmaması ideyasını formalaşdırır. Nəticədə uşaqlar yaxşılıq etmək qabiliyyətini itirirlər (Quliyev, 2018).

İnformasiyanın əldə edilməsi şəxsiyyətin sosial inkişafının təbii və yeganə yoludur. Sosial inkişaf prosesində insanda informasiya ehtiyacları formalaşır. Bu ehtiyaclar onun müxtəlif növ, keyfiyyət və həcmdə informasiyaya olan təbii tələbatı kimi başa düşülür. Onların təsiri altında insanın KİV ilə qarşılıqlı əlaqəsinin xarakteri formalaşır. Bu ehtiyaclar insanın sosial fəallığının və özünü reallaşdırmasının əsas amillərindən biridir (Tapscott, 2009).

KİV-in imkanlarının pedaqoji cəhətdən məqsədyönlü istifadəsi, inkişaf etməkdə olan şəxsin informasiya-pedaqoji mədəniyyətini formalaşdırmağa imkan verir. Bu mədəniyyət onun tərbiyəsinin göstəricilərindən biridir. Bu mədəniyyət özünü şəxsin müxtəlif KİV növlərinə, onların məzmununa, keyfiyyətinə, informasiya həcminə, həmçinin özünütəhsil və özünütərbiyədə onlardan məqsədyönlü istifadəsinə olan münasibətində göstərir.

Belə bir mədəniyyət ilk növbədə uşağın erkən yaşlarından ailədə formalaşır. Bu fakt valideynlərdən müxtəlif informasiya sistemlərinə, təqdim olunan informasiya proqramlarına diqqət yetirməyi və onları tərbiyə və təhsildə pedaqoji cəhətdən düzgün istifadə etməyi tələb edir. Valideynlər öz sosial-pedaqoji fəaliyyətləri ilə uşağın informasiya əlaqələrini optimallaşdırır, onun

informasiya ehtiyaclarının və informasiya mədəniyyətinin formalaşması prosesini idarə edirlər. Mahiyyət etibarilə, valideynlərin bu cür fəaliyyəti uşağın informasiya mühitinin formalaşdırılması adlanır (UNESCO, 2011).

Uşağın informasiya mühitinin formalaşdırılmasında sosial pedaqoqlar, tərbiyəçilər, sinif rəhbərləri də iştirak edir. Sosial pedaqoqlar məktəbdə və məktəbdənkənar mühitlərdə uşaqlarla fərdi və qrup şəklində işləyərək, onların mediadan necə və hansı məqsədlə istifadə etdiklərini müşahidə edir, ehtiyac olduqda korreksiyaedici tədbirlər həyata keçirirlər (Valkenburg, Peter, 2011).

## Nəticə

Aparılmış tədqiqatlar və təhlillər əsasında müəyyən olunmuşdur ki, kütləvi informasiya vasitələri şagirdlərin sosial inkişafına həm müsbət, həm də mənfi təsir göstərə biləcək güclü vasitədir. KİV-in təqdim etdiyi informasiya, vizual və verbal mesajlar, onların şüuraltına təsir etmə qabiliyyəti, manipulyativ metodlardan istifadə etməsi və informasiya bolluğu yeniyetmələrin dünyagörüşünün, sosial münasibətlərinin və dəyərlər sisteminin formalaşmasına birbaşa təsir edir.

Eyni zamanda, düzgün istiqamətləndirilmiş və pedaqoji nəzarətdə olan media istifadəsi şagirdlərin ünsiyyət bacarıqlarının, empatiya hissinin, sosial adaptasiya imkanlarının və tənqidi düşünmə qabiliyyətlərinin inkişafına şərait yaradır. Araşdırma göstərdi ki, media savadlılığı – yəni şagirdlərin media məzmununu anlama, qiymətləndirmə və ona qarşı mövqe formalaşdırma bacarığı – sosial inkişafın əsas amillərindən biri kimi çıxış edir. Valideynlərin və pedaqoqların əməkdaşlığı, şagirdlərlə maarifləndirici söhbətlərin təşkili və uyğun media kontentinin seçilməsi KİV-in təsir gücünü daha çox pozitiv istiqamətə yönəldə bilər. Beləliklə, nəticə etibarilə qeyd etmək olar ki, KİV-in şagirdlərin sosial inkişafındakı rolunun səmərəli olması üçün məqsədyönlü pedaqoji yanaşma, nəzarət və maarifləndirmə tədbirləri zəruridir.

## Ədəbiyyat


1. Bandura, A. (2001). *Social Cognitive Theory of Mass Communication*. Media Psychology, 3(3), 265–299.
2. Buckingham, D. (2003). *Media Education: Literacy, Learning and Contemporary Culture*. Polity Press.
3. Əliyeva, G. (2019). *Müasir dövrdə KİV-in uşaqların psixososial inkişafına təsiri*. Təhsil Nəşriyyatı.
4. Gerbner, G., Gross, L., Morgan, M., & Signorielli, N. (1986). *Living with Television: The Dynamics of the Cultivation Process*. In *Perspectives on Media Effects*. Lawrence Erlbaum Associates.
5. Hacıyeva, S. (2020). *Pedaqogika və psixologiya aspektində informasiya cəmiyyətinin uşaqlara təsiri*. Elm və Təhsil.
6. Jenkins, H. (2006). *Convergence Culture: Where Old and New Media Collide*. NYU Press.
7. Kəlbiyev, M. (2017). *Şagirdlərin sosial psixoloji inkişafında medianın rolu*. Təhsil Problemləri Elmi-Tədqiqat İnstitutu.
8. Livingstone, S. (2009). *Children and the Internet: Great Expectations, Challenging Realities*. Polity Press.
9. Mardakhaev, L. V. (2005). *Sotsialnaya Pedagogika*. Moskva.
10. Quliyev, R. (2018). *KİV və gənclər: Sosiallaşma prosesi və dəyərlərin formalaşması*. Adiloğlu.
11. Tapscott, D. (2009). *Grown Up Digital: How the Net Generation is Changing Your World*. McGraw-Hill.
12. UNESCO. (2011). *Media and Information Literacy Curriculum for Teachers*. UNESCO Publishing.
13. Valkenburg, P. M., & Peter, J. (2011). *Online Communication and Adolescent Well-being: Testing the Stimulation versus the Displacement Hypothesis*. Journal of Computer-Mediated Communication, 16(2), 200–209.